# Hörmətli Adnan Oktarın yeni şərhləri (5 may 2013; 18:00)

**HÖRMƏTLİ ADNAN OKTARIN ƏRAF SURƏSİNDƏN AYƏ İZAHLARI**

**Əraf surəsi, 55-ci ayə**

**Rəbbinizə yalvara-yalvara, həm də gizlicə dua edin. Şübhəsiz ki, O, həddi aşanları sevməz!**

Şeytandan Allaha sığınaram. **"Rəbbinizə yalvara-yalvara, həm də gizlicə dua edin. Şübhəsiz ki, O, həddi aşanları sevməz!"**

Dua səmimi edilməlidir. Bunu xüsusi bir diqqətlə, xüsusi bir səmimiyyət ruhuyla nail olmaq lazımdır. **BİR DƏ UZUN DUA DEYİL. ƏSASLI, DƏRİN VƏ SƏMİMİ DUA ÇOX ƏHƏMİYYƏTLİDİR. ÜRƏKDƏN, CAN-DİLDƏN OLMALIDIR İNŞAALLAH.**

**Əraf surəsi, 66-cı ayə**

**"Qövmünün kafir zadəganları dedilər: "Biz səni səfeh sayırıq və həqiqətən də, səni yalançılardan hesab edirik!""** Diqqət edin, Peyğəmbər (s.ə.v)-ə nə deyirlər? **"Qövmünün kafir zadəganları dedilər"-**yəni, o dövrün mətbuatından bir hissə, sərmayəçiləri, o dövrün kübar cəmiyyəti, o dövrün yüksək vəzifəli saxtakar dəstəsi, dinsiz, yalançı dəstəsi. **"Biz səni səfeh sayırıq".** Yəni, "Sənin ağlın pozulub, dəlisən sən" -deyirlər Peyğəmbər (s.ə.v)-ə. Kim deyir? O dövrün idarəçiləri, o dövrün dərin dövləti, saxtakarları deyir. **"... və həqiqətən də, səni yalançılardan hesab edirik!"** Yəni haşa "yalançı, oyunçusan sən" deyirlər. Özlərinə sərf etmədiyinə görə "həm də dəlisən" -deyirlər. Axırzamanda Mehdi (ə.s)-a nə deyəcəklər? Eyni şəkildə "Sən yalançı və dəlisən" deyəcəklər.

https://www.harunyahya.info/az/meqaleler/hormetli-adnan-oktarin-yeni-serhleri-5-may-2013-1800